

## ÇƏRKƏZOĞLU

***

İlk söz yazan Yaradandı,
Boş səs salan yaranandı,
Demək öncə söz yarandı.

Söz əvvəldi, səssə axır,
Səsin canı sözlə çıxır
Söz söz olsa, sözə baxır.

### SÖZ...

Bağışlayan və Mehriban uca Tanrı!
İznin ilə Söz saldım ki, Səndən, barı,
Nura bükə vəcdə gələn təb, əşarı,
Nizam görə taxtda Sözün səltənəti.

"Ol!"dan vüsət alan Sözün söz surəti,
Verə "Ta Ha" ayəsinə düz surəti.

Yaza batin mətləbini bəyan edə,
Öz bürcüylə kəhkəşanda kəsə gedə,
Cənnətə yol, riz sala hər nabələdə.

Həmin bürclə "Müqəddəs Ruh"(ə) vəhy endirdi,
Məhəmmədə (s.ə.s) "Əş-Şüəra" fərz edirdi,
De!- "Bəsirət göz qırpmırsa söz şeirdi".

Söz Rəbbindi, Söz Qurandı, Söz Peyğəmbər!
Əşrəf - Sözə Allah gizli Söz öyrədər,
Sözə Söz ver, deyiləni təfsir edər.

Qol-qanad ver Sözə, bir də sonsuz fəza,
Gəzsin, tapsın nə sığmırsa ağlımıza,
Ağıl qoysun bu ağılsız dünyamıza.

Söz bərk tutur cahil ömrün cilovundan,
Gənc Baharı qoruyur qış qırovundan,
Alır fələk kəmfürsətin girovundan.

Qara donu yırtılanda sınacaq ox,
Eşitdiyi səs olacaq son kəs, söz yox,
"Vaqiənin" özündən çox, Sözündən qorx!

Heç vaxt görməz dünya Sözün süqutunu,
Əbədiyyət təməlidi yoxdu sonu,
Saxlar Cənnət əhli, Haqqı-Salam onu.

Söz aqibət, Söz Qiyamət, Söz Cənnətdi,
Mövlanələr deyən hikmət, ləl-zinətdi,
Diz çök, əl aç, nə dilənsən qənimətdi.

Sözü süslə, üzünü ört, hicab bağla,
Yeddi yerdən qıfılbənd vur, pünhan saxla,
Yoxsa, Ləhəb Quranı da öyər lağla.

Mənalı Söz ümman qədər ağır, dərin,
Süst görünür üstü, sadə sətirlərin,
Təlatümü alt qatdadı ləpələrin.

Baş vurma ki, Söz boy verməz hər qəvvasa,
Sahil görməz yelkənini yel qovmasa,
Gəvəzədi Sözü batsa, iz qalmasa.

Gözdən keçirt, yüz ölç,- bir biç Söz, əyninə,
Sözü seç, düz ulduz-ulduz ərz çiyninə,
Günü, ayı vur cıqqa tək bəzəyinə.

Artıq-əskik Sözü Sözdən ayır, insan!
Söz ucalıq verər başa, uca tutsan,
Alçaq edər Sözü yersiz xırdalasan.

Həm səfadı, həm cəfadı - Hakimdi Söz!
Həm şəfadı, həm bafadı - Həkimdi Söz!
Şairsənsə, bu dolaşıq kələfi çöz.

Gündüz Sözə aşiq olub, Söz gecəyə,
Qovuşmaqçün Sözlə, qapan sağ hücrəyə,
Sən abid ol, Söz ibadət, düş səcdəyə.

İmanında tapsan təpər, təbin yetər,
Təbə bənddi təb bətnində salnamələr,
Gecə-gündüz, vaxtı səhih namaz bölər.

Təbin, qələm ürəyini üzə-üzə,
Aman vermə, qov gecəni, yet gündüzə,
Əli Sözü möhür vursun dövrümüzə.

Çərkəzoğlu, sən çəkdiyin Söz şərbəti,
Cövhər dadır, süz nuş etsin Türk milləti,
"Oxu!" desin cahana bu ilk ibrəti!